# POETİK SÖZÜN VAHİD ƏZİZİ



*Qüdrət UMUDLU,*
*ADPU-nun dosenti*
*filologiya üzrə fəlsəfə doktoru*

Vahid Əziz müasir Azərbaycan poeziyasının parlaq nümayəndələrindən biridir. Ötən əsr 60-cı illərin sonlarında ədəbiyyata gələn şair sonrakı onilliklərdə ürəyəyatan şeirləri ilə bədii yaradıcılıq yollarında uğurla addımlamış, orijinal yaradıcılıq qabiliyyətinə malik lirik bir şair kimi özünü təsdiq etmiş, müstəqillik dövründə oxucular tərəfindən daha da sevilib məşhurlaşmışdır. Onun həzin duyğular ifadə edən misraları dillərə düşmüş, hətta şeirlərindəki lirik notlar çox sevilən, məşhur bəstəkarların da diqqətini çəkərək romantik duyğular oyadan mahnılara çevrilmişdir.

Cəfərov Vahid Əziz oğlu - 23 noyabr 1945-ci ildə Qərbi Azərbaycanda, Zəngəzur mahalında - ulu oğuz elatı Dərələyəzin Herher kəndində dünyaya göz açmışdır. Altı yaşında ikən ailəsi Tərtər rayonuna köçmüş, gələcəyin xalq şairi orta təhsilini Tərtərdə almışdır. 1963-cü ildə orta məktəbi bitirdikdən sonra bir neçə il istehsalatda çalışan gənc Vahid Politexnik İnstututuna daxil olmuş və 1971-ci ildə oranı bitirmişdir. Ali təhsilini tamamlayıb, "Xəbər" Mətbuat Agentliyində 5 il çalışdıqdan sonra (1971-1976) o, Bakı Şəhər Partiya Komitəsinə işə keçirilir. 6 il "Təbliğat və təşviqat" şöbəsində təlimatçı işləyir. Öz bilik və bacarığı ilə yüksək partiya orqanlarının diqqətini cəlb edən gənc, perspektivli V.Cəfərov yenə irəli çəkilir, Azərbaycan KP MK-də əvvəlcə təlimatçı, sonra isə Mətbuat bölməsinin müdiri vəzifəsində (1982-1989) fəaliyyət göstərir. Şair keşməkeşli illərdə - SSRİ-nin dağılması və Kommunist Partiyasının süqutuna qədər Azərbaycan Dövlət Mətbuat Komitəsində sədr müavini (1989-1991) vəzifəsində çalışmışdır. Mütləq hakim partiya orqanlarında məsul vəzifələrdə işləməsinə baxmayaraq, bütün varlığı ilə milli olan Vahid Əziz müstəqilliyin ilk keçid dövründə (1991-1997-ci illər) Azərbaycan Yazıçılar Birliyinin katibi olmuşdur.

Bundan sonrasını şairin öz sözləri ilə çatdıraq: "Mən həyatda çox keşməkeşli, ağrılı günlər gördüm. ... 1997-ci ildə Yazıçılar İttifaqından işdən çıxarıldıqdan sonra Bakı Şəhər Reklam tərtibatı Agentliyində işə düzəldim. Bunu da mənə çox gördülər... Nə isə, 52 yaşında işsiz-gücsüz qaldım, indiyə kimi...". Lakin, "... ömrümü şərəflə, ləyaqətlə yaşadım". ("İncə duyğuların əlvan şeiriyyəti". Jurnalist Mehparə Əliyevanın Vahid Əzizlə müsahibəsi. "Xalq qəzeti", 29 noyabr, 2025-ci il).

Vahid Əziz ədəbiyyat aləminə "Ədəbiyyat və incəsənət" qəzetində 60-cı illərin sonlarında dərc olunan şeirləri ilə qədəm qoymuşdur. 1969-cu ildə "Gənclik" nəşriyyatı gənc şairin ilk şeir kitabını çapdan buraxır. 40 səhifəlik kitabçaya gənc istedadın 20-yə yaxın şeiri salınmışdı. Kitabdakı şeirlər daha çox, romantik təbiət lövhələrini poetik boyalarla əks etdirən sərbəst şeir nümunələri idi. Sərbəst şeir demişkən, Vahid Əziz onda da, sonralar da poeziyamızda Rəsul Rza, Nazim Hikmət ənənələrini davam və inkişaf etdirən şairlərimizdən olmuşdur. İlk kitabı "Mən küləyi görürəm" adlanırdı. Kitabda gənc şairin həzin duyğuları orijinal poetik ifadə tərziylə şeirlərə çevrilib sıralanırdı. Adi təbiət hadisəsinə həssas duyğu ilə nəzər salan şair yazırdı:

Tufan qopacaq
sahillərdə bir azdan.
Mən qabaqcadan duya bilirəm
kükrəyəcəyini dalğaların,
dəyişəcəyini havaların.
Əsəblərimlə duyuram onu
Görürəm küləyi
Havalar tutulanda...

Kitabda şairin bir neçə misradan ibarət "Şaxta" adlı bir kiçicik şeiri də var. Bir - iki misralıq şeirdə bütöv bir fəslin - daha dəqiqi, payızın qışla qovuşan son günlərinin sözlə çəkilmiş tablosunu görürük:

Payız küləkləriylə
Çılpaq budaqlara
damlalar qondu.
Ölməkdə olan bir ürək kimi
titrədi və dondu.

Bu poetik nümunələrdən bir az da R.Rza "Rənglər"inin koloriti, qoxusu gəlir, elə bil..., görünür, bu da təsadüfi deyil. Poeziya aləminə yenicə qədəm qoyan gənc şairə ilk xeyirduanı verən, onu uğurlayıb yaradıcılığa həvəsləndirən də məhz görkəmli ədibimiz, sərbəst şeirin böyük ustası Rəsul Rza olmuşdur. Bu məqamda "Ədəbiyyat və incəsənət" qəzetinin 1968-ci il, 16 mart nömrəsində Rəsul Rzanın Vahid Əzizlə bağlı dərc olunmuş "Tanışlıq" adlı təqdimat yazısı yada düşür...

Gənc, Politexnik İnstitutunun üçüncü kurs tələbəsi Vahid Cəfərov ilk qələm təcrübələrini (özü onları sadəcə "yazı" adlandırırdı) bir qovluğa toplayıb Rəsul Rzanın yanına gedir. Təvazö və utancaqlıqla onları böyük şairə təqdim edib, fikrini bilmək istəyir. İşlərinin çox olmasına baxmayaraq Rəsul müəllim "yazı"ları gözdən keçirir... Ustad sənətkar bu vaqiə ilə bağlı qeydlərini öz uğurlama xarakterli yazısını, habelə Vahidin bir neçə şeirini qəzetdə dərc etdirir. R.Rza orada yazırdı: "Oxudum. Vərəqləri çevirdikcə qarşımda istedadlı bir şairin surəti canlanırdı. Daxildən bir səs sanki, mənə deyirdi: "Sənə təqdim etdiyi bu parçaları şeir deyil, yazı adlandırır. Bunlar ki, şeirdir. Bu şeirlər qibtə oyada biləcək qədər poetikdir. Burada ağıl, hiss, arzu, xəyal, qəlb döyüntüsü, zövq elə bir vəhdətdə ifadə olunmuşdur ki, oxuyursan sevinirsən, sinən qürurla qabarır. Bu mənim yurdumun balasıdır!" (R.Rza. Tanışlıq. "Ədəbiyyat və incəsənət" qəzeti, 16 mart 1968-cı il).

"Tanışlıq"da Vahidin "Ana", "Gecə işıqlar sönür", "Tütək" şeirlərindən parçalar verilir və həmin şeirlər qısaca təhlil edilir, təqdir xüsuslu fikirlər bölüşülürdü. Məsələn, gənc şair "Ana" şeirində belə yazırdı:

Yəqin ki, görmədiyim üçün,
Heç nəyə oxşada bilmirəm təbəssümünü.
Eşidə bilmədiyimə görə
seçə bilmirəm səsini
bütün anaların səsindən.
Bir də ki, bəlkə sən öpmədiyinə görə
gözlərim,
barmaqlarınla daramadığına görə
saçlarım
belə qaradır:
insan ömrünün
hədər gedən günləri kimi,
Ana!

R.Rza: "Ana haqqında çox şeir yazılıb: sızıltılı, məhəbbətli, duzlu, şit, qaraqışqırıqlı, lakin bu şeir həzinliyi, son misraların gözlənilməz təşbeh ilə poetik təfəkkürün insan qəlbində, ruhunda gizlənmiş nikbinliyi aydın göstərir". (Yenə orada).

İlk kitabının nəşrindən, haradasa, beş il sonra "Gənclik" nəşriyyatı Vahid Əzizin "Aylı pəncərə" (1974) adlı ikinci şeirlər kitabını oxuculara təqdim edir. Şairin bu şeir buketində də bir-birindən təsirli vətən, həyat, təbiət, insanlıq və məhəbbətdən bəhs edən olduqca poetik "Məni", "Bahar", "Aylı pəncərə", "Payız", "Bakı", "Mehribanım" kimi onlarla şeir toplanmışdı. "Məni" rədifli iki bəndlik şeirində şair özünü təbiət hadisələri ilə müqayisə edir, yağışa, dan yerinə, gülə və s. aid düşüncələrini romantik tərzdə belə təqdim edir:

Mən yağışam - buludlardan tökülən,
Dan yeriyəm - günəş ilə sökülən,
İstərəm ki, min boyayla çəkilən
Düzlərə gül kimi səpələr məni.

Şairin sözlə çəkdiyi "Payız" rəsmi də oxucunu müəyyən mənada qayğılandırır, mənzərə insanı xəzan mövsümünün həm fiziki, həm də mənəvi-ruhani təsiri altına salır:

Saraldı, könlümü sıxdı meşələr,
Yarpaqlar gözümü dağlayacaqdır.
Saz kimi köynəkdən çıxdı meşələr,
İndi Sarı Aşıq ağlayacaqdır...

Vahid Əzizin poeziyası mövzu baxımından əlvandır, rəngarəngdir. O, təbiət vurğunudur. Şairin bir sıra şeirlərində buna şahid olursan. O, vətənin əsrarəngiz gözəlliklərini, dağlarını, düzənlərini, yaşıl ormanlarını, bərəkətli tarla və bağlarını, kəndini, şəhərini, ana yurdun hər bir güşəsini, hər çağını, hər fəslini öz rəngində - gecələrinin sirli gecə gözəlliyini, övladlarına ümid və sevinc bəxş edən al səhərini, yaşayıb-yaratmağa stimul, güc verən parlaq gündüzlərini öz doğal koloritində, qeyriadi həvəs, oxucuda fərəh hissi oyadan yüksək bir zövqlə tərənnüm edir. Məsələn, gecəni sabaha ümid, arzu və xəyallar ağuşunda keçirib, dan yerinin sökülüb, al şəfəqə qərq olacağını gözləyən şair həmin çağı belə vəsv edir:

Hardasa ləngiyir açılan səhər,
Göylər gözəllikdən məst olub, nədir?!
Dünyanı qoynuna alan gecələr
Nə qədər gözəldir, şairanədir.

Cəmi dörd misralıq "Bakı" şeirində gözəl Bakımızın açılan səhəri çox böyük məharətlə, təkrarsız məcazla təsvir olunur:

Şəfəqlər xəncər tək batıb gecəyə,
Zülməti min yerə parçalayıbdır.
Üfüqlər əbədi qızarsın deyə,
Bakı Xəzər üstə od qalayıbdır.

İstifadə olunan məcazlar neçə də poetik və romantik vüsətlidirlər.

V.Əzizin üçüncü "İllərin baharı" (1980) və dördüncü "Əllərimin kölgəsi" kitabları (1985) da "Gənclik" nəşriyyatında işıq üzü görür. Bu nəşrlərdə də oxunaqlı, fərqli mövzu, məzmun və formalarda bir neçə yüz maraqlı lirik şeirlə yanaşı "Sərsəng nəğmələri", "Günəşlə bir üfüqdə", "Polad yolun nəğməsi", "Tək elin səsi" poemaları da yer alırdı. Şair şeirlərində, məsələn, "Sabahın qatarı"nda səfərə çıxıb yol gedir. "Pəncərə önündə" dayanıb gah "Küçə fənərləri"nə tamaşa edir, gah da mavi suların "Sahilə çatmayan, ləpələr"ini heyranlıq və düşüncələr içində izləyir. Aldığı təsirlərdən onun sinəsi qabarır, hiss və duyğuları çoşur. Müşahidə və seyrinin davamında qəflətən bir nigarançılıq onu bürüyür. Yuxularında ara-sıra görünən, yaddaşında fraqmentləri canlanan ömrü, doğmaları gözü önünə gəlir, onu bu gün və sabahla bağlı düşüncələrə qərq edir.

Şairin "Əllərimin kölgəsi" kitabındakı şeirlərində dərdin səmimiyyət, özünəməxsus duyğusal söz palitrasında əlvan rənglərdən yoğrulan, ürəklərə yol tapan poetiklik özünü göstərir. Onun "Gecə hardan bilir ki..." poetik sualı oxucunu da düşünməyə vadar edir:

Gecə hardan bilir ki,
Səhər nə cür olacaq,
Günəş gələnə kimi
Hansı ulduz qalacaq?
Hansı nəğmə açacaq
Səhərin gözlərini?
Hansı şəfəq siləcək
Zülmətin izlərini?..

Kitabdakı şeirləri xüsusi maraq və həvəslə oxuyub təsirlənən xalq şairi Nəbi Xəzri öz təəssüratını şeir həvəskarları ilə bölüşdüyü "Düşündürən sətirlər" adlı resenziyasında yazırdı: "Vahid Əziz oxucuyla danışmağı bacarır. Özü də inanaraq, inandıraraq danışır. Şairlə oxucu arasında bir doğmalıq əmələ gəlir ki, bu da həyatda əsl yaradıcıların payına düşən xoşbəxtlikdir" (Nəbi Xəzri. Düşündürən sətirlər. "Ədəbiyyat və incəsənət" qəzeti, 25 oktyabr, 1985-ci il).

Vahid Əziz partiya və hökumət orqanlarında işləyərkən çox az şeir yazır. Özünün dediyinə görə, elə yazıldığı günlərdən mahnı mətnlərinə çevrilən məşhur bayatıları və bir neçə satirik şeirdən savayı ortalığa bir şey çıxarmır. Özünün qeyd etdiyinə görə, işsiz-gücsüz qaldığı, fəal həyat tərzindən kənarlaşdırıldığı üçün sıxıntıya düçar olur.

*(Davamı 3-cü səhifədə)*

# POETİK SÖZÜN VAHİD ƏZİZİ

*(Əvvəli 2-ci səhifədə)*

O ara, “tərs kimi şeir də yaza bilmirdim” - deyən şair həmin günləri belə xatırlayır: “1997-ci il iyun ayının 6-sı idi. Axşamüstü dənizkənarı parkda gəzirdim. Havalı kimi gəzirdim... Daha yaşamaq istəmirdim. Hər şeydən əlimi üzmüşdüm...”. Və birdən ona sanki, vəhy gəlir. Ona əzab verən düşüncələr ruhunu üsyankar tərzdə çoşdurur. Başı üstə dolanan “ilham pərisi” onu qələmə əl atmağa sövq edir. O günü və o anı xatırlayaraq, həmin məqamda doğulan şeir barəsində xalq şairi belə qeyd edir: “... Yaxınlıqdakı çayxanaya girdim, cibimdən bir parça kağız çıxarıb, “Dağ başında qar üstünə qar gələr” misrasıyla başlayan “Əzizim” şeirini yazdım” (“İncə duyğuların əlvan şeiriyyəti”. “Xalq qəzeti”, 29 noyabr, 2025-ci il).

O gündən ilham pərisi Vahid Əzizi tərk etmir. Onun bir-birindən gözəl yüzlərlə şeiri yaranır. Şairin 1997-ci ildə çıxan “Dözmək olmur ...” kitabına daxil edilən, bəstəkar Eldar Mansurov tərəfindən gözəl bir musiqi bəstələnib, xalq artisti Flora Kərimova tərəfindən ifa olunduqdan sonra xitə çevrilən populyar mahnıda - məşhur “Dözmək olmur” şeirində şairin gileylə üz tutub etdiyi “əzizim” xitabı ilk baxışda mücərrəd lirik obraz təsiri bağışlaya bilər. Lakin mətnin mahiyyətinə vardıqda görürsən ki, əslində burada bəndə öz Rəbbinə xitab edir. Çarəsiz qalan bəndə - müəllif tanrı dərgahına üz tutub deyir:

Dağ başında qar üstünə qar gələr,  
Gileylənmək zirvələrə ar gələr,  
Hər nə geysəm, vücuduma dar gələr,  
Bu darlığa dözmək olmur, əzizim.  
...Ləpələrə yalvarmaqdan bezmişəm,  
Hönkürməkdən, ağlamaqdan bezmişəm,  
Səndən ayrı yaşamaqdan bezmişəm,  
El-obadan bezmək olmur, əzizim.

Yalan dünyada qalıb ömür sürməkdənsə, onu büs-bütün tərk etməyi üstün bilən, özünü - cismini ləpələrə qərq edib, əbədiyyətə qovuşmağı, artıq, özü üçün fərz hesab edən şair haqqın hakim, ədalətin ehkam olduğu məkana doğru yolçu olmaq niyyətindədir. Bununla yanaşı, xalqının şair övladı ana bildiyi vətənə, el-obaya lazım olduğunu da yaxşı anlayır və bunu unutmur. Lakin, o, nəfsin at oynatdığı bu dünyadan, yaradanına yox, nəfsə qul olan insanlardan çəkdiyini-çəkmiş, bu həyatdan bezmiş, əzəli əslinə - Haqqa qovuşmaq xəyalına düşmüşdür. O, koç etməkdə, artq qərarlıdır:

Heç bilməzdim daşım belə ağırdı,  
Bəxtim belə biçarədi, fağırdı,  
Gedəcəyəm, göylər məni çağırdı,  
Daha yerdə gəzmək olmur, əzizim.

O zamandan, yəni Yazıçılar İttifaqındakı vəzifəsindən, sonra da qısa müddətli olmuş digər işindən kənarlaşdırıldıqdan sonra rəsmi işi və gəlir mənbəyi olmayan Vahid Əziz, necə dəyərlər, “gözünü - könlünü” bütünlüklə bədii yaradıcılığa verir, sonrakı həyatını xalqının mədəni səviyyəsinin, zövqünün inkişafına həsr edir. İnsanın ruhunu oxşayan incə, zərif insani duyğular aşılayan nəğmə-mahnı mətnləri, ibrətamiz, dərin fəlsəfi məzmunlu poetik əsərlər, saf, pak məhəbbətə həsr olunmuş aşiqanə poeziya nümunələri, vətən mülkünün təbii gözəlliklərini vəsv, doğma yurdun qutsallığını ehtirasla tərənnüm edən, vətənpərvərlik ruhunda şeirlər qələmə almaqla bütün insanların, gənc nəslin bədii-estetik tərbiyəsinin, mənəvi-əxlaqi keyfiyyətlərinin formalaşmasına həsr edir. Sonrakı onilliklərdə şairin bir sıra kitabları, o cümlədən dörd cildlik “Seçilmiş əsərləri”, “Yarım əsrin çiçəkləri: Səninlə”, “Param-parça olmuş illər”, “Yaşamağa tələsməyin” adlı çoxtirajlı nəşrləri işıq üzü görmüşdür.

Xalq şairi Vahid Əzizin, haradasa, altmış illik yaradıcılığında çoxçeşidli mövzulara müraciət olunduğunu yuxarıda qeyd etmişdik. Bunu da vurğulamışdıq ki, müasir poeziyamızın əsas nəğməkar şairlərindən hesab olunan sənətkarın məhəbbət mövzulu şeirlərinin bir çoxuna görkəmli bəstəkarlar tərəfindən mahnılar bəstələnmiş və şedevr sayılan həmin sənət nümunələri unudulmaz, məşhur müğənnilər tərəfindən səsləndirilərək xalqın yaddaşında əbədilik qazanmışdır. Bu gün onlarla populyar mahnı mətninin müəllifi olan Vahid Əziz hələ Politexnik İstitutunun son kurslarında oxuyarkən bəstəkar Elza İbrahimovanın onun şeirlərinə bəstələdiyi “Mehribanım” mahnısını Şövkət Ələkbərova, “Şirin bir xəyalsan” mahnısını isə Flora Kərimova oxumuşlar. Sevdalı aşiq bütün varlığına hakim kəsilən sevgi dolu duyğusunu “Mehribanım”da belə ifadə edirdi:



Səni hər an gözləyərəm,  
İzləyərəm pəncərədən.  
Baxışlarım bulaq kimi  
Axıb gedir küçələrdən.  
Deyirsən ki, sorma məni bir kimsədən.  
Necə susum, necə danım -  
Səni sevdim,  
Səni andım el içində, mehribanım.

Vahiz Əziz məhəbbət mövzulu şeirlərində bəzən çox nikbin olub, vüsal dəmlərini yaşayan aşiqlər kimi şən notlarda gəzişir, bəzən də o, sevgisindən, daha doğrusu, sevgilisindən, onun hərdəmxəyal olmasından gileylənərək öz taleyindən şikayət edir. Şair düşdüyü hicran dərdindən, onun ağırlığından, tarixdə ad qoymuş, yüzilliklərin o tayında eşq oduna yanaraq kədərə qərq olmuş Nəsimi, Füzuli kimi sızlayaraq danışır. Yolçusu olduğu ağrılı, əzablı sevda yolundan, bu yolun bir yorğunu kimi söz açır. Və daddığı acıların şiddətinə rəğmən, özünü “gerçək aşiq” və sadiq bir qul təki eşqinə qurban deyir:

Yenə məni atıb getdin,  
Qocaqlıqda qaldım yetim,  
Bu dünyanın sən etdiyin  
Bərbadına qurban olum...

Aşiq - Vahid öz etinasız sevgilisini inandırmağa çalışır ki, “özgəsinin ürəyində, belə sevgi, inam, olmaz!”... Bütün varlığı ilə eşqinə sadiq olan aşiq - şair vüsala ümid edərək öz yarını belə əmin edir:

Elə bağlanıb ki, həyatım sənə  
Quş olub arxanca uçub gələcəm,  
Adımı çağırsan, bircə səsinə  
Dünyanın sonuna qaçıb-gələcəm.

...Bilirsən - bu eşqdən mən əl çəkmərəm,  
Aradan bir qara yel əsə bilər,  
Sənin harayına mən gecikmərəm.  
Ölümün qanadı tələsə bilər...

Vahid Əzizin məhəbbət lirikasındakı aşiqin sevgisinin həddi-hüdudu yoxdur, bu sevgi nəhayətsizdir. Öz məhəbbətində son dərəcə sadiq və sabit olan lirik qəhrəman - aşiq sevgisinin qədərini aşağıdakı misralarda çox səmimi etiraf etmişdir:

Deyimmi, nə qədər sevirəm səni? -  
Dünyanın gecəsi - gündüzü boyda!  
Saymaqla qurtarsan hər səyyarəni,  
Üstəgəl gördüyün Göy üzü boyda!

Qara sevdanın sitəmi, sevgilinin etibarsızlığı vüsala çata bilməyən aşiqin, yəni şairin bir zamanlar şura gəlib nəğmə deyən dilini lal edir, nitqini kəsib susqunluğa düçar edir. Bir vaxt: - “Dindirin, bir milyon söz deyim sizə, Nədən deyirsinizsə danışa billəm,” - sözləri ilə ötən şair, uğursuz məqamda sözə möhtac qalır. Lazımı sözləri tapıb yarımçıq şeirini - yazmaq istədiyi ən gözəl, ən təsirli eşq nəğməsini tamamlaya bilmir:

Bir şeirin həvəsi tutub qəlbimi,  
Nəğməsi dilimdə, sözü tapılmır.  
Bir vaxt itirdiyim ilk eşqim kimi  
Həsrəti gözümdə, özü tapılmır.

Vahid Əziz yaradıcılığının mühüm bir hissəsini şairin Vətən - vətənpərvərlik mövzusunda qələmə aldığı şeirləri təşkil edir. İlhamını haqdan alan əsl şairlər içərisində yaşadığı cəmiyyətin avanqard, keçmişdən xəbərdar, gələcəyi fəhm edən, xalqın taleyini öz varlığında hiss edən, duyan, yaşayan, başqalarına nəzərən, bir çox məsələlərə baxışda ayıq olan bir zümrədir. Zənnimizcə, Vahid Əziz də fitrətən fəhmli bir insan və seçilən şairlərimizdən biridir. Ağlının yaxşı kəsdiyi ilk gənclik dövründən vətəninin ərazi bütövlüyünün natamamlığı, tarixən böyük əraziləri əhatə edən Azərbaycan məmləkətinin zaman-zaman doğranıb parçalanması səbəbləri Vahidi düşündürmüş, uydurularaq yazılan tarix kitabları, imperiyanın siyasi məqsədlərinə xidmət edənlərin formalaşdırdığı yalanlar onu aldada bilməmiş, yaxşı dərk etdiyi gerçəklik onun ürəyini sızlatmışdır. Qəddar və riyakar hegemonluğun acı nəticələri onun qəlbinin və düşüncəsinin narahatlığına səbəb olmuşdur. Bir vaxtlar:

Bəxtinin çarxını fələk işlədir,  
Söz verir, aldadır, kələk işlədir.  
Yüz ildir yolların keşməkeşlidir,  
İndi gəlib çıxır Araz üstünə. -

deyən şair içində közərən ümid işığını sönməyə qoymayıb, belə davam edirdi:

... Bilmirsən özünü hara vurasan,  
Naxçıvan, Xankəndi, Dərbənd, Xorasan...  
Yazıq Azərbaycan para-parasan,  
Kaş ki, gün doğaydı bir az üstünə.

Vahid müəllim bir şair, bir vətəndaş olaraq Vətəni sarıdan daim nigarançılıq keçirmişdir. Orta yaşa qədər böyük Şəhriyarın, Bəxtiyarın, Səhəndin, Xəlilin çəkdiyi dərd yükünü bölüşən şair Vahid Əzizin fikri, dərdi-səri o tay və bu tay Azərbaycanın bütöv olmaması idisə, sonradan onun üzərinə Qərbi Azərbaycan, Qarabağ yaraları da yüklənərək əlavə olundu. Laxlayan imperiyanı idarə edə bilməyən, bununla belə, imperialist ambisiyalarından əl götürməyən bolşevik hökumətinin siyasilərinin təhriki və düzənlədiyi fitnə-fəsad nəticəsində, nankor erməni millətçiləri tərəfindən Qərbi Azərbaycan mahallarının dinc insanları, o cümlədən şairin doğmaları öz əzəli, doğma yurdyuvalarından, qərət edilərək, qovulub məcburi köçkün oldular. Həmin iyrənc siyasət rus ordusunun iştirakı ilə kəmfürsət, xəyanətdən və qan tökməkdən həzz alan erməni faşistlərinin kütləvi qırğınlar törətməsi və Qarabağ da daxil olmaqla, 20 faiz torpaqlarımızın işğalı ilə nəticələndi. Vahidin qəlbində yara üstə yara, dərd üstə dərd gəldi. Tarixi torpaqlarımızın hissə-hissə itirilməsi, Azərbaycanın getdikcə cırtdan bir ölkəyə dönməvə ya yox olma təhlükəsi şairi bəzən vahiməyə salırdı. Əlli milyonluq millət niyə bu aqibəti yaşamalıdır? Axı bizim bir olmağa, bütöv - suveren olmağa imkanımız və haqqımız var!..

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 3-cü səhifədə)*

90-cı illərin başlanğıcında baş verən fəlakət, Vətənin başı üstünü alan qara buludlar şairin qəlbini bir an rahat buraxmır, gözlərində və düşüncəsində böyüyüb ürəyini dələn suallara cavab axtarır:

Düşünürəm, qovruluram - görəsən,
Bu milləti bəla hardan alıbdır?
Yavaş-yavaş dərk edirəm, deyəsən,
Ara-sıra öz başına qalıbdır...

Acı da olsa, çıxarılan nəticə doğru görünür. Nə zaman ki, başında qüdrətli, qüvvətli, necə dəyərlər, ilahi "qut" almış müdrik hökmdar, sərkərdə - başçı olubdur, o zaman Azərbaycan güclü olmuş, böyümüş, sarsılmaz, alınmaz qalaya çevrilmişdir. (Bu günkü kimi!..)

Təəssüf ki, nə zaman ölkədə səbatsız, qərarsız başçılar hökm sürmüş, sonda ölkə zəifləmiş, gücünü-qüdrətini itirdiyi üçün yağılar üstümüzə ayaqlanmışdır. Şair Vahid Əziz də ömür boyu güclü, dünyanın hesablaşdığı, nüfuzlu bir Azərbaycan dövləti arzulamışdır; "Azərbaycan, sən olmasan..." şeirindəki kimi:

Yüz illərdir aldanırıq - anmırıq,
Dərs olmadı nə Zəngəzur, nə Araz!
Azərbaycan! Niyə bunu qanmırıq?!
Sən olmasan - heç kəs bizi yaşatmaz!

Vətənini və dövlətini canından artıq sevən bir insan üçün itirilən vətən torpağı - itirilmiş şərəf, iflasa uğrayan nüfuz və şöhrət, üzərinə kölgə düşən qeyrət və namusdur. İşğalçı üzərində möhtəşəm qələbə və ölkəmizin suverenliyinin tam bərpası ilə nəticələnən 44 günlük ikinci Qarabağ müharibəsinə qədərki bir qərinəlik atəşkəs, əslində "səbr" və "dözüm" (siyasi - diplomatik, iqtisadi və hərbi hazırlıq) dövründə, xalqın hər bir fərdi kimi, bəlkə daha çox, narahatlıq keçirən şairə görə qeyrəti olan kəs torpaq itkisi ilə barışmamalı, silaha sarılıb mübarizəyə qalxmalıdır.

Məhz bu səbəbdəndir ki, sənətkarın qəlbi hay çəkib, haray salırdı:

Damarımda Arpa çayı çağladı,
İçəmmədim, yollar hələ bağlıdır,
Parçalanan Qarabağın bağrıdı,
Sağaltmasaq, dağı, daşı kül olar.

Vahid Əziz üçün Vətəndən uca, Vətəndən əziz nə isə yoxdur. Onun "Mən"inə hakim, içindən gələn səmimi hisslərini bu poetik misralar çox gözəl ifadə etmişdir:

Heç kəs yaşamaz doyunca,
Zirvə yox Vətəndən uca!
Atılarıq qucaq-qucaq -
Oduna qalanmaq üçün!

Vətənin oduna qalananlar, özünü ona təmənnasız qurban edənlər mübarək məqama yüksələn, ruhları müqəddəs ucalıqda qərar tutan şəhidlərdir. Şəhidlər - dinini kafirdən, vətəni və millətini onun mülkünə göz dikən yadlardan, pis və məkrli niyyətlərdən qorumaq üçün düşünmədən özlərini düşmən həmləsinə sipər edənlərdir.

"Bir kərə yüksələn bayraq, bir daha enməz" - amalı ilə yaşayan ölməzlərin, vətən övladlarının məramı şairə görə, budur:

Vətən səndən ad almışıq,
Közlərindən od almışıq,
Bayrağını ucaltmışıq -
Göydə dalğalanmaq üçün!

Bir vaxtlar ocağımızın bir kənarına çəkib torpaq, yaşamaq və dirçəlmək imkanı verdiyimiz, "Adəm övladıdır", - deyib əzizlədiyimiz haylar ideoloji qayəsi: "parçala, hökm et" - olan imperialist ağalarının dəstəyi ilə gözəl Qarabağımızı işğal etdilər. Xankəndi, Şuşa və s. inzibati ərazilərimizdə bayrağımız endirilmiş oldu. Dövlətçiliyimizə ciddi zərbə təsirində olan bu işğal faktı xalqımıza dərd gətirdi. Vahid də, müvəqqəti məğlubiyyətə, bu işğala xalqının bir şair oğlu kimi çətin dözdü. Yox, dözmədi, yandı, qovruldu...

"Tarixdə bu qədər yenilməmişdik -
Qılınc nə vaxtadək sığar qınına"

- sualı ilə gileyləndi. "Yetər, yadelilər məsləhətləri - Uyuduq baş qatan sığal - tumara! "Mənə ölüm, sən ölüm", "Pişim - pişimlə" - Qələbə çalınmaz, torpaq qayıtmaz!" - deyib, sanki, üsyan etdi. Qələmini silaha çevirərək xalqı azadlıq savaşına səslədi:

Çağlayan ümmanıq, coşqun dənizik,
Göstər qüdrətini, Vətən, Cahana!
Əsir Xankəndinin sahibi bizik -
Qonaq gəlməmişik Azərbaycana!

Nəhayət, 2020-ci ilin payızı gəldi... Daşnakların növbəti bir təxribatı millətimin və onun rəhbərinin səbr kasasını daşırdı. Həyasız düşmənin aqressiyasına və yalandan baş sığallayan Qərb siyasilərinin apardığı ikili standart oyunlarına qarşı dözüm dövrü bitdi. Məqamın və fürsətin yetişdiyini yaxşı bilən Ali Baş Komandan ordumuza "Hücum" əmrini verdi. Azərbaycan qartalları, durmadan təxribat törədən düşmən üzərinə sığıdı. Şahinlərimiz qəddar və hiyləgər düşmənə aman vermədi. Hərb tarixində görünməmiş bir sürətlə - 44 gün davam edən Vətən müharibəsi tam qələbə ilə başa çatdı. Kəmfürsət, namərd yağıdan qisas alındı. Erməni ordusu darmadağın edildi. İstər kəskin döyüş əməliyyatları, istərsə də sonrakı bir günlük antiteror əməliyyatı, hamı kimi, şair Vahid Əzizin də diqqət mərkəzində idi. Hər gün verilən, ardıcıl gələn qələbə xəbərləri onu hədsiz dərəcədə qürurlandırır, fərəhi yerə-göyə sığımırdı. Sevinci poetik misralara dönüb kağız üzərinə səpilir, qələbəmizi tərənnüm edən yeni şeirlər yaranırdı.

Şair müsahibələrinin birində belə qeyd edirdi: "44 günlük Vətən müharibəsi dövründə yazdığım yüzə yaxın şeir və bir poema "Param - parça illər" kitabında cəmlənib. Kitab Qarabağ müharibəsinin gündəliyi, işğalçı Ermənistanın zəbt etdiyi tarixi torpaqlarımız uğrunda qəhrəman ordumuzun və xalqımızın mübarizəsi haqqında poetik salnamədir" ("İncə duyğuların əlvan şeiriyyəti...". "Xalq qəzeti", 29 noyabr, 2025-ci il).

Milli ordumuzun güclü strateji və taktiki hazırlığı sayəsində bir-birinin ardınca azad olunan məntəqələr barədə Ali Baş Komandana və Azərbaycan xalqına raportlar verilir. Düşməndən təmizlənmiş kənd və şəhərlərdə bir-bir yenidən Azərbaycan bayrağı ucaldılır, bununla bərabər, müqəddəs davamızda düşən şəhidlərimizin tabutları da üçrəngli şanlı bayrağımıza bələnərək evlərinə, ailələrinə dönürdü. Ağır, lakin qürurverici bu mənzərələri öz doğmaları kimi səbr, qürur və əzmlə müşahidə edən, qəlbində onlara yas tutan ədib belə yazırdı:

Bayraq qibləgahdı, inam yeridi,
Önündə diz çöküb, gərək öpülsün.
Şəhidin üstünə o salınır ki,
Vətəndən arxayın uyuya bilsin.

Böyük ürəklərin sevgisi də böyük olur. Vahid Əzizin qəlbində qərarlaşıb formalaşan sevgi də ümman qədər olmaqla bir neçə müqəddəs ünvana yönəlmiş sevgidir. Ən öndə Vətən, ardınca da Anaya olan sevgi dayanır. Onun şair ürəyində yer alan bir sevgi də öz intim dünyası ilə bağlı, təlatüm edən eşqi, həyatda sevib-seçdiyi bir el gözəlinə olan sevdasıdır. Vahid müəllim humanist bir insandır. Yəni o, həm də bütün yaxşı insanları, bəşəriyyəti sevir.

Bəli, şairin poetik dünyasına baş vurduqca, yaradıcılığı ilə yaxından tanış olduqca görürsən ki, onun ilkin və əsas "məhbubu" vətəndir. Sənətkarın vətəninə olan intəhasız məhəbbəti "Can Vətənə gərəksə..." adlı şeirində:

Qəlbimdə candan əziz,
Vətəndən qeyrisi yox..." - misraları ilə səmimi tərzdə etiraf edilmişdir. Bu müşərrəf etiraf şeirin son bəndində daha qətiyyətlə ifadə olunmuşdur:

Onunam hər nəfəsdə,
hər nəğmədə, hər səsdə,
Can vətənə gərəksə -
bu yolun gerisi yox!...

Söz yox ki, "Vətəni sevməyən insan olmaz..." Şübhə yox ki, bu sevginin də fərqli dərəcələri vardır. Vahid Əziz vətənini qeyri-adi dərəcədə çox sevənlərdəndir. Vətən onun əsas ilham mənbəyi, özünün və şeirinin ruh qaynağıdır. Vətənimizin hər güşəsi - dağı-daşı, çölü-çəməni, yamyaşıl yaylaqları və meşələri də, yovşanlı düzləri də onun üçün eyni dərəcədə əzizdir. Ömrünün böyük hissəsini şəhərdə yaşasa da, doğma və doğal yerlərin, ətirli torpaqların həmişə həsrətini çəkən şair təbiətə doğru can atmış, təbiət üçün qəribsəmişdir. Doğma yerlərə əli çatmaz, ünü yetməz zamanda fəryad da etmişdir. Məsələn, Dəli dağın həsrətilə çağırdığı bayatıdakı kimi:

Qalmışam Dəlidağsız,
Olaram dəli dağsız.
Dağlar, insafa gəlin,
Ahımdan dağılarsız.

... Bir neçə ay bundan əvvəl 80 yaşını qeyd etdiyimiz qocaman, lakin qəlbi və ruhu cavan şairimizə, Azərbaycanın Vahid Əzizinə möhkəm can sağlığı və yeni - yeni yaradıcılıq uğurları arzulayırıq.

***2026***